# Ölkə əhalisinin sayı 9 milyon 784 min 600 nəfərə çatıb

*Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə əhalisinin sayı bu ilin əvvəlindən 0,8 faiz artaraq oktyabr ayının 1-i vəziyyətinə 9 milyon 784 min 600 nəfərə çatıb. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkədə 119,7 min uşağın anadan olduğu qeydə alınıb. Bu isə hər gün orta hesabla 437 köpənin dünyaya göz açması deməkdir. Hazırda bu göstərici əhalinin hər 1000 nəfəri hesabı ilə 16,5 nəfər təşkil edir.*

*9 ayda Azərbaycanda 42 min ölüm halı baş verib. 1397 nəfər ölkəni həmişəlik tərk edib. Azərbaycanda daim yaşamağa gələnlərin sayı isə 2678 nəfər olub. Bütün bunlar nəzərə alındıqda, ölkədə əhalinin sayının əsasən təbii artım, yəni yeni doğulanların hesabına artdığı məlum olur.*

*Beləliklə, Azərbaycanda doğulanların sayı ölənlərin sayını üç dəfəyə yaxın üstələyir və bunun nəticəsində yaranan təbii atım heç də hər xalqa qismət olan xoşbəxtlik deyil.*

*Sadə peşə adamları*

# Ətirlidir, dadlıdır...

Ürəyiniz yananda çay içmək istəsəniz Daşqın Şirinovun işlədiyi çayxanaya gələ bilərsiniz. Bu çayxana şəhərimizin Azadlıq küçəsində yerləşir. Daşqın Şirinov 31 ildir samovar qaynatmaq, çay dəmləməklə məşğuldur. Bu sadə peşə adamının dəmlədiyi çayın ətrinə, dadına söz ola bilməz. Səliqə-sahman da öz yerində.

Stəkan və nəlbəkiləri tər-təmiz olur. Müştərilər onun dəmlədiyi çaydan razılıq edirlər.

Dedikcə səmimi, xoş xasiyyət insan olan Daşqının dilindən heç kim inciməyib. Ona görə qəsəbə və kəndlərdən gələn müştərilər Daşqının işlədiyi çayxananın sorağında olur.

✍ **Aslan CƏLİLOV.**

# Yeni ildə yeni uğurlara doğru

Qəbələ şəhər 3 saylı tam orta məktəbin kollektivi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə tədbir keçirmişlər. «Kəhran» restoranında təşkil olunmuş tədbirdə məktəbin direktoru Ədilə Əliyeva kollektivin üzvlərini bu əlamətdar günlər münasibətilə təbrik etmiş xalqımıza daha möhkəm birlik, Yeni ildə yeni uğurlar arzulamışdır. Tədbir maraqlı konsert proqramı ilə davam etmişdir.

***«Qəbələ».***

# Yeni il şənliyi keçirilərkən yanğın təhlükəsizliyi qaydalarına əməl olunmalıdır

İnsanların bir yerə toplaşdıqları Yeni il şənliklərində onların təhlükəsizliyinin qorunması vacibdir.

Yeni il şənlikləri keçirilən obyektin bütün işçiləri yanğına qarşı təlimatlandırılmalı və onlar baş verə biləcək yanğın hadisəsi zamanı vəzifələrini dəqiq bilməlidirlər! Bu işdə şənlik keçirilən obyektin, məkanın rəhbəri cavabdehlik daşıyır.

Əsas və ehtiyat giriş, çıxış yollarının qarşısı əşyalarla (stol, stul və s.) tutulmamalı, bura insanlar toplaşmamalı, sərbəst çıxışa mane olan qurğular quraşdırılmamalıdır. Köçürmə yolları işıqlandırılmalı və birbvaşa çıxışa doğru acılması təmin edilməlidir.

Yeni il yolkası binanı tərk etməyə iki sərbəst çıxış yolu olan və ehtiyat çıxış qapılarının üzərində yaşıl rəngli «CIXIŞ» sözü (elektriklə işfiqlandırılmış) yazılmış göstərici lövhə asılan, eləcə də ikinci mərtəbədən yuxarı olmayan və yanmayan arakəsmələr olan otaqlarda qurulmalıdır!

Yolka ağacı yerə möhkəm bərkidilməli, dayaqlar üzərində elə quraşdırılmalıdır ki, onun budaqları tavana və divarlara toxunmasın!

Yeni il şənlitkləri zamanı tikintinin imkanlarından (normadan) artıq insanların zala buraxılmasına (toplanmasına) yol verilməməlidir!

Yeni il şənlikləri keçirilən yerlər ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir!

Yeni il şənliklərində atəşfəşanlıq məqsədilə pirotexniki vasitələrdən, həmçinin yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edilməsi qadağandır!

Yeni il şənlikləri keçirilən obyektlərin pəncərələrində dəmir barmaqlıqlar olmamalıdır!

Yeni il şənliklərində yolkanın şamla işıqlandırılmasının yanğın təhlükəsi yaratdığını nəzərə alaraq bina yol verilməməlidir!

Yolka bəzədilərkən pambıqdan, tənzifdən və s. tezalışan parçalardan istifadə edilməməlidir!

Yeni il şənlikləri keçirilən zaman uşaqların geydiyi şənlik paltarları tezalışan materialdan olmamalıdır!

Şam ağacının bəzədilməsində istifadə olunan lampalar ardıcıl qoşulmalı və bu zaman gərginlik 12 voltdan, cərəyan 25 vatdan artıq olmamalıdır!

Oturacaqların ara məsafəsinin azıldılması, əlavə stul və kreslolar qoyaraq cərgəarası keçidlərin bağlanması yolverilməzdir!.

Yanğın təhlükəsizliyinə cavabdeh növbətçilərin və digər məsul şəxslərin olmadığı zaman obyektlərdə tədbir keçirmək olmaz!

**Yanğın zamanı nə etməli**

Tədbir zamanı yanğın baş verdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin 112 qaynar xətitnə zəng vuraraq məlumat vermək lazımdır!.

İşfiqlandırıcı vasitələr dərhal şəbəkədən ayrılmaqla söndürülməlidir.

Tədbir iştirakçılarının dərhal təxliyə olunmasına başlanılmalıdır!

Əldə olan vasitələrlə yanğının söndürülməsinə başlamaq lazımdır!

**Yeni il şənlikləri zamanı yanğın təhlükəsizliyinə əməl edin!**

**Dövlət Yanğın Nəzarəti Xidmətinin Yanğına qarşı təbliğat şöbəsi.**

# Yeni il şənliyi

"Qəbələ" İK Futbol Akademiyası kollektivi "Qafqaz Sport" otelində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə tədbir keçirib.

Tədbiri açıq elan edən akademiya direktoru Halim Fıçıcı yola saldığımız 2016-cı ildə görülən işlərdən, qazanılan uğurlardan və 2017-ci ildə qarşıda duran vəzifələrdən söz açıb. Nitqinin sonunda akademiyanın direktoru kollektivi Yeni il münasibətiylə təbrik edib.

Tədbir iştirakçılarına bayram süfrəsi açılıb.

# Xeyirxah insanlardan kömək gözləyirik

Qızım Gülüş Səfərli epilepsiya xəstəliyindən əziyyət çəkir. Onu müalicə etdirməyə maddi imkanım yoxdur. Ümidim xeyirxah insanlara qalıb. Xahiş edirəm, qızımın müalicəsi üçün əlinizdən gələn köməyi əsirgəməyəsiniz.

**Səfərli Mehriban.**

Kapital Bankın Qəbələ filialında açılmış hesab nömrəmiz:

**Valyuta: AZN**
**Benefisiarın bankı:** Kapital Bank ASC Qəbələ filialı
Filialın kodu: 200491
VÖEN: 9900003611
SWIFT kod: AIIBAZ 2 X
Müxbir hesab: AZ37NABZ01350 100000000001944

**Benefisiarın adı:** Səfərli Gülüş Elçin qızı.
Hesab №: AZ19AİİB41010019440116263149.
Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi 50.
Tel.: (02420) 5-02-18.

# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Böyük Pirəli kənd sakini **Ağababayev Tahir Həciənməd oğluna** verilmiş JN seriyalı 021 G nömrəli (kod 40602018) **Torpağın mülkiyyət hüququna dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi tərəfindən 22 iyun 2005-ci il tarixdə Kəlbəcər rayon sakini **Hüseynova Bəsti Bəhmən qızına** verilmiş AA seriyalı 117514 nömrəli **Məcburi köçkün vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 05 fevral 1999-cu il tarixli 03 nömrəli qərarına əsasən Nic qəsəbə sakini **Muradari Viktor Mayisoviçə** verilmiş JN seriyalı 312 H nömrəli (kod 40600068) **Torpağın mülkiyyət hüququna dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən 02 mart 2011-ci il tarixdə Qəbələ şəhər sakini **Həsənov Eldəniz Şahin oğluna** verilmiş 1911000357 qeydiyyat nömrəli, MA seriyalı 0162313 nömrəli **Dövlət reyestrindən çıxarış və Torpaq sahəsinin planı və ölçüsü** sənədi itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

10 saylı Ərazi Vergilər İdarəsinin kollektivi iş yoldaşları

**XOSROV MÜRSƏLOVUN**

vaxtsız vəfatı ilə əlaqədar mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov və muzeyin kollektivi iş yoldaşları **Aynur Əlişah qızına**

**ATASININ**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ İncəsənət Məktəbinin kollektivi iş yoldaşları **Nailə Məmmədovaya** qardaşı

**VÜQARIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*Əl işdən soyumaz, ürək arzudan...*



QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti 1933-cü ildən nəşr olunur

qəzetinə

*2017-ci il üçün abunə yazılışı davam edir.*

**İllik abunə qiyməti 30 manat, yarımillik 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyada nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.